# DİNİN MƏDƏNİYYƏT ÜZƏRİNDƏ TƏSİRİ
## (əxlaqi və mədəni)

**Müəllif**: Səadət Məmmədova[1]
**Elmi nəzarətçi**: Dr. Tofiq Əsədov[2]

**Alınan tarix**: 05/01/2016 **qəbul tarixi**: 28/02/2016

**Məqalənin xülasəsi**
Tarix boyu hər cəmiyyət öz zaman və məkan şərtlərinə görə həyat yaşamışdır. Yaşadıqları müddətdə həyatlarını maddi və mənəvi baxımdan inkişaf etdirməyə çalışmışlar. Hər cəmiyyət təbii olaraq, böyümək, inkişaf etmək və irəliyə getmək istəyər. Tarix boyunca bəzi cəmiyyətlərin digərlərinə nisbətən daha çox yol qət edib, iz qoyduqlarını görmək olar. Bir cəmiyyətin inkişaf edib mədəniyyət yaratması çox vacib bir mərhələdir. Heç şübhə yoxdur ki, din sivilizasiyanı zənginləşdirir və daha da gözəlləşdirir. Əlbəttə belə də deyil ki, hər bir din özü ilə bəşərin mədəniyyətinə zidd bir mədəniyyət gətirir. Əksinə hər bir din müəyyən dəyərlər yaradır və ya onları açıqlayır. İslam dininin dünya mədəniyyətindəki əvəzolunmz təsirləri vardır. Bu məqalədə elə onun bəzi təsirlərini araşdırırıq.

**Açar sözlər**: İslam, sivilizasiya, mədəniyyət, bəşər, hüquq

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی

1. Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, İslam araşdırmaları fakültəsi, Magistr, seadetmuhemmedi@gmail.com
2. Əl-Mustafa Beynəlxalq Virtual Universitetinin Əsas Elmi-heyətinin üzvü, tofiq.asadov@inbox.ru

## Giriş

Ərəbcə “mədinə” sözündən götürülən mədəniyyət kəlməsi “şəhərləşmək”, “şəhər həyatını mənimsəmək” deməkdir. Qərb dillərində istifadə olunan civilisation kəlməsi, latın dilində civitas kəlməsindən yaranan ingiliscə city, fransızca çite (şəhər) sözləri ilə və ingiliscə civic (şəhərə aid), civit (kübar) sözləri ilə eyni mənaları daşımaqdadır.

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی

Cəmiyyətdə inkişaf və irəliləmədə dinin çox vacib yeri vardır. Çünki, din insanları bir-birinə bağlayan ən önəmli dəyərdir. Bu hiss və inanc həmin cəmiyyəti daha güclü edər. İbn Xaldun bu barədə belə deyir: "Əgər qəlblər batil şeylərə və dünyəvi mənfəətlərə yönəlsə, rəqabət başlayar və anlaşılmazlıqlar artar.

Ancaq haqqa yönələr, batil olan şeyləri, dünyəvi mənfəətləri rədd edərsə və sadəcə Allahın razılığını hədəf bilərsə, (haqq ətrafında) birləşərlər, rəqabət aradan gedər, anlaşılmazlıqlar azalar və bir-biri ilə yardımlaşma və mübarizənin ən gözəl forması görünər. Beləcə... hakimiyyət genişlənər və dövlət böyük bir gücə sahib olar."

Əbəttə mədəniyyətlər coğrafi və iqlim şəraitinə görə fərqlənir və bərabər deyildirlər. Mədəniyyətlərin bəzisi, məsələn cahiliyyət dövründəki qız uşaqlarını diri - diri basdırmaq adəti, cəmiyyətlərdə bidət və xurafatlar yayıb və zaman keçdikcə o cəmiyyətin mədəniyyətinə çevrilmişdir. Təbiidir ki, belə mədəniyyətlər və dinin arasında heç bir əlaqə yoxdur.

Din o zaman zühur edir ki, özündən əvvəl olan dindəki sistemin forması fəsada çevrilsin, ya da əxlaqi - ictimai yoldan çıxma yaransın. Hər halda, din adətən cəmiyyətdə əsaslı dəyişiklik ya inqilab yaradır ki, mədəniyyətlərin silkələnməsinə, bəzi ünsürlərin dağılmasına və yeni dəyərlərə uyğun yeni ünsürlərin yaranmasına səbəb olur.

Heç şübhə yoxdur ki, din sivilizasiyanı zənginləşdirir və daha da gözəlləşdirir. Əlbəttə belə də deyil ki, hər bir din özü ilə bir mədəniyyət gətirir. Əksinə hər bir din müəyyən dəyərlər yaradır və ya onları açıqlayır. Bu dəyərlər, bir mədəniyyət formasında, bu dəyərlərə uyğun olmayan qədim mədəniyyəti aradan aparır.

İslamın zühur etməsi və qız uşaqlarını diri-diri dəfn etmək adətini aradan aparması kimi. Bəzi formalar var ki, məna cəhətdən dəyərsiz və yeni dəyərlərin əksidir, amma yeni dəyərlərə əsasən onda ruh üfürüb, fəsaddan xaric edib. Məsələn, İranda islamdan qabaqkı və ondan sonrakı Novruz bayramı kimi.

Əslində yeni din, yeni mədəniyyət gətirmir. Əksinə yeni dəyərlər açıqlanır və cəmiyyət bu dəyərlər əsasında yeni mədəniyyəti yaradır. Yəni dinin əsasında, yeni mədəniyyət zühur edəndən sonra, artıq o din cəmiyyətin mədəniyyətinin bir hissəsi sayılır.

Peyğəmbərimizin (s.a.a) dönəmindən indiyə qədər müsəlmanlar öz inancları çərçivəsində mədəniyyət yaratmışlar. Müsəlmanların fərqli zaman və fərqli məkanlarda mədəniyyət yaratmaqlarına baxmayaraq, bu mədəniyyətlərin təməl qaynaqları eyni olmuşdur.

## İslam və sivilizasiyalar

İslam mədəniyyətini digər mədəniyyətlərdən fərqləndirən təməl xüsusiyyətlər vardır. Hər şeydən əvvəl İslam dini ilhamını vəhydən almışdır. Andre Miquelin dediyi kimi, "İlhamını dindən alaraq şəkillənən bir toplumda şübhəsiz dinin təsiri daha dərin və bu sosial həyatda daha aydın görülməkdədir." Müsəlmanların tarixinə baxarkən hər sahədə dinin təsirini görmək mümkündür. Belə ki, təhsildən mədəniyyətə, incəsənətdən sosial həyata, memarlıqdan tutmuş hər sahəyə qədər dini dəyərlər hiss edilir.

İslam dini, inanclılara bəzi vəzifələr müəyyən etmişdir. Bu vəzifələr fərd və cəmiyyətin xeyri üçündür. İslam dininin özünə məxsus dünya görüşü və həyat tərzi vardır.

Hər şeydən öncə, İslam mədəniyyəti maddə ilə məna, ruh ilə bədən, dünya ilə axirət, vəhy və ağılla ayrılmaz bir bütünlük təşkil edir. Bunlarla bərabər, İslam mədəniyyətində fərqli irq, rəng, dil, mədəniyyət, coğrafiya və.s faktorları ayırıcı ünsürlər hesab edilmir.

Çünki, İslam dini insanı fərqli dində olsa belə, onunla insan kimi rəftar etməyi, hörmət etməyi tapşırmışdır. Əli ibn Əbu Talibin Malik Əştərə göndərdiyi məktubda bu məsələyə işarə edilmişdir: “Sənin üçün ən yaxşı xəzinə xeyir əməllərin xəzinəsi olmalıdır. Bəs öz nəfsinə qalib gəl. Nəfsinə rəva görmədiyin məsələdə xəsislik et ki, nəfsin istədiyi şeylərdə xəsislik etmək insafdandır. Rəiyyət ilə mehribanlıq etməyi, onları sevməyi və lütfkarlığı özünə şüar qərar ver. Yırtıcı bir heyvan kimi olma ki, onları ovlamağı özünə qənimət biləsən.

Çünki, onlar iki qrupdurlar. Ya səninlə eyni dindən olanlardırlar. Ya da, yaradılışda səninlə eynidirlər. Onlar səhvə yol verəcəklər, bilərəkdən və ya bilmədən yanlışlığa düçar olacaqlar. Onları öz mərhəmətin və mehribanlığından nəsibsiz etmə. Necə ki, Allah Təalanın sənə qarşı mehriban və bağışlayan olmasını istəyirsən.”

İslam mədəniyyətində insan başda olmaqla, canlı və cansız hər varlıq yaradılış statusuna uyğun olaraq öz həyatını davam etdirmək hüququna malikdir. Həmçinin fərdin ailə həyatı, qonşularla münasibəti, elm və təhsil, iqtisadiyyat, sosial, mədəni, incəsənət və.s sahələrdə İslamın tövsiyə etdiyi hüquqi və əxlaqi qanunlar mövcuddur.

"Tarixdəki Yüz Böyük İnsan" adlı kitabıyla bütün dünyada əks-sədaya səbəb olan Amerikalı elm adamı professor Michael Hart'a kitabın ilk nəşr olunduğu tarixdən on il sonra, Qahirədə çağırıldığı bir mükafat mərasimində, Əl-Əhram qəzeti müxbirinin; "Kitabınızın nəşrindən 10 il keçdi demək olar.

“100 Məşhur Adam” adlı kitabınızda birinci yeri Həzrət Məhəmmədə ayırmışdınız, hələ də bu fikrinizdə israrlısınız? " sualına bu cavabı vermişdi:

"Bu məşhurların ilk siyahısıdır. Bu say 200-300 belə olarsa, Həzrət Məhəmmədin (s) siyahının başındakı yeri sabitdir. Mən məşhurları araşdırarkən bəzi sabit meyarlar ortaya qoydum. Bunlardan biri də, məşhurların insanlıq tarixində buraxdıqları geniş və dərin izlərdir. Mənim, məşhurların ən məşhuru olaraq Həzrət Məhəmmədi seçməyim isə, Onun həm peyğəmbərliyi, həm də dini və dünyəvi səviyyədə fövqəladə şəkildə müvəffəqiyyətli olmasıdır. Bəşər - əxlaqi, fəlsəfi və hüquqi olaraq İslamdan daha mükəmməl bir din görməmişdir.

Həzrət Məhəmmədin vəfatından sonra da İslam, dünyanın şərqində və qərbində yayılmağa davam etdi. Dünyada hələ bir çox insan ürəkləri və ağılları ilə İslama yönəlir. Həzrət Məhəmmədin dəvət etdiyi din, 14 əsr əvvəl mədəniyyətin və mədəniyyət mərkəzlərinin xaricindəki bir bölgədə doğulmuşdu. Və çətin şərtlər altında yol aldı. Buna baxmayaraq İslam, dünyanın hər istiqamətinə yol tapdı. Və inanıram ki Həzrət Məhəmməd kimi, hər istiqamətiylə mükəmməl bir insan, bir daha gəlməz. " Professor Dr. Michael Hart.

Bir toplumun mədəniyyət yarada bilməsi üçün bəzi xüsusiyyətlərə malik olması lazımdır. Bu xüsusiyyətlər həmçinin, toplumu bir yerə toplayır və onu daha da gücləndirir. İnsanları bir yerə toplayan, aralarında qardaşlıq, səmimiyyət və dostluq yaradan ünsürlər maddiyatdan daha çox, mənəviyyatla əlaqədardır.

Mənəvi ünsürlər mədəniyyətlərin əmələ gəlməsində çox böyük rol oynayıblar. Şəhid Mütəhərrinin dili ilə desək: "Şübhə etmək olmaz ki, bir cəmiyyətin inkişafı nəinki münaqişələrin, dava-dalaşların, ixtilafların, ziddiyyətlərin, əksinə, həmfikirliyin, uyğunluğun, bərabərliyin, qarşılıqlı köməyin vasitəsilə gerçəkləşir.

Həqiqətdə cəmiyyətdə çoxluqlar, ayrılıqlar, ixtilaflar vəhdətə hər nə qədər yaxın olarsa və mübahisələr, ziddiyyətlər öz yerini hər nə qədər köməyə, həmrəyliyə daha çox verərsə, o cəmiyyət daha kamil olar."

Qurani-Kərimdə buyurulur: «Hamılıqla Allahın ipindən yapışın, bir-birinizdən ayrılmayın. Allahın sizə bəxş etdiyi nemətləri yada salın ki, bir zaman siz düşmən olarkən O, qəlblərinizi bir-birinizə mehriban etdi və Onun bu nemətinə görə qardaş oldunuz.» (Ali-İmran\103)

Allahın Peyğəmbəri (s):«Ey insanlar! Birliyə, bütövlüyə üz tutun və parçalanmaqdan çəkinin.» (Knzül-ümmal, hədis 1028)

İmam Əli (ə) da xütbələrində də təfriqə və parçalanmaq pislənilir:

«Cəmiyyətin əksəriyyəti ilə birgə olun. Çünki Allahın əli camaatladır. Bir-birinizdən ayrılmayın ki, sürüdən ayrı düşən qoyun canavara yem olduğu kimi insanlardan ayrı düşən də şeytana yem olar. Allah-taala heç kimi təfriqə ilə xeyirə və səadətə çatdırmaz.» (Nəhcül-Bəlağə, xütbə 127)

Təfriqə, ixtilaf, uyğunsuzluq olan cəmiyyətdə birlikdən və inkişafdan söz gedə bilməz. E. Durkheimın da dediyi kimi toplum üzvlərinin eyni dəyərlər çərçivəsində düşünməkləri və anlaşmaları "kollektiv şüuru" yaradır. Kollektiv şüurun güclü olduğu cəmiyyətlərdə çətinliklər qarşısında müqavimət, inkişaf etmək daha asan və sürətli olur. Sosial, mədəni və dini dəyərləri güclü olan cəmiyyətlər hər nə qədər maddi ünsürlər baxımından zəif olsa da, dinamik sosial quruluşa sahibdirlər.

Çünki, onları bir yerə toplayan dəyərlərdir. Bir toplumun mədəniyyət qurması üçün bir-birinə sıx bağlanmış fərdlərə sahib olması lazımdır.

Fərdləri bir-birinə bağlayan ən mühüm ünsürlərin başında mənəvi dəyərlər gəlməkdədir. Mənəvi dəyərlər deyərkən ağlımıza ilk olaraq sosial, mədəni, əxlaqi, dini və.s dəyərlər gəlir.

Həzrət Adəmdən etibarən göndərilən dinlərin hamısında əxlaq çox önəmli yer tutmuşdur. Bu əxlaqi dəyərləri bu gün dünyadakı dinlərin çoxunda görmək mümkündür. "Əxlaq" "xülq" sözünün cəmidir. "Xülq" insanın daxili xüsusiyyətləri, «xəlq» isə zahiri forma deməkdir. İnsanlarda müşahidə olunan hər bir əməl, daxili keyfiyyət, hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

Əxlaq universaldır. Buna görə də hər millətin, cəmiyyətin və dinin bir əxlaq anlayışı vardır. Buna baxmayaraq, dünyadakı ilahi dinlərin bəzi ortaq əxlaqi qanunları vardır. Məsələn: doğruluq, təmizlik, yaxşılıq etmək, böyüklərə hörmət, zərər verməmək, günahsız birini öldürməmək, oğurluq, zina və yalançı şahidlik və.s.

• Doğruluq – İnsanın digər insanlarla əlaqələrində təməl əxlaqi davranışlardan biridir. Eyni zamanda insanın kimliyini, davranışını ortaya qoyan bir xüsusiyyətdir. Doğruluq – yalan, hiylə, ikiüzlülük, riyakarlığın ziddidir. Bütün dinlər doğruluğa, dürüstlüyə çox böyük dəyər vermişlər.

İslam dini doğruluğa çox dəyər vermişdir. Necəki, Qurani Kərimdə "Sənə əmr edildiyi kimi, düz (yolda) ol. Səninlə birlikdə iman gətirənlər (tövbə edib ardınca gedənlər) də düz (yolda) olsunlar." (Hud - 112), "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!" (Əhzab - 70) ayələri Peyğəmbərin şəxsində bütün möminlərə doğru olmağı əmr etməkdədir.

İslam ancaq doğru danışmağı yox, həmçinin rəftar və davranışlarda da doğruluğun mühümlüyünü qəbul edir.

Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun! (Tövbə - 119)

Xristianlıqda da doğruluğa əhəmiyyət verilmişdir. İncillərdə doğruluq bu cür ifadə edilmişdir: "Ən kiçik işlərdə etibar edilə biləcək insan, böyük işdə də etibarlı olar.

Ən kiçik işdə dürüst olmayan adam, böyük işdə də dürüst olmaz." (Luka İncili 16/10) "Həyatdan zövq almaq istəyən dilini pislikdən, dodaqlarını yalandan qorusun... . Çünki, Rəbbin nəzəri doğru insanların üzərindədir" (İncil, Peterin 1-ci məktubu – 3/ 10 – 12)

İslam və xristianlıqda olduğu kimi doğruluq yəhudiliyində dəyər verdiyi bir məsələdir. Bu məsələ Tövratda bu cür ifadə edilmişdir: "Oğurluq etməyəcəksiniz. Hiylə işlətməyəcəksiniz. Bir-birinizə yalan deməyəcəksiniz. Mənim adımdan yalandan and içməyəcəksiniz..." (Müqəddəs kitab, Levlilər 19/1-12) "...Sən yaxşıların yolu ilə get. Doğruların izi ilə get. Çünki, ölkədə yaşayacaq olanlar doğrulardır. Orada qalacaq olanlar dürüst adamlardır." (Tövrat, Süleymanın sözləri – 3/ 20-21)

Budizm və Hinduzimdə də doğruluq əxlaqi ucalıqlardan biri hesab edilir. Hinduizmdəki karma inancı - insanın keçmişdə etdiklərinin gələcəkdə qarşılığını görəcəyi inancı əsasındadır. Buna görə də doğruluq insanın karma inancını müəyyən edən ən vacib əxlaqi qanundur. "Hər buddistin doğru bir insan olması üçün 5 şərtə riayət etməsi və 5 qadağadan qaçması lazımdır. Həmin qanunlar bunlardır: Can daşıyan varlıqları öldürməmək, özünə aid olmayan şeyləri götürməmək, başqasının xanımına toxunmamaq, doğru olmayan şeyi söyləməmək, sərxoşluğa səbəb olan içkilərdən istifadə etməmək" (Qautama Budda)

Konfuizmdə isə doğruluq insanın mükəmməl əxlaqının göstəricidir. Bu xüsusiyyətə sahib olan insanın bir çox şeyin öhdəsindən gələcəyinə inanılır.

Doğruluq həm fərdi, həm ictimai həyatda müsbət nəticələr doğuran əxlaqi xüsusiyyətdir.

Doğru davranışlar cəmiyyətin səviyyəsini qaldırar, həyatın daha sakit və mehriban olmasına şərait yaradar. Sırf bu səbəbdən bütün dinlər doğruluğu öz ardıcıllarına tövsiyyə etmişlər.

• Təmizlik - bütün dinlərin ortaq əxlaqi qaydalarından biri sayılır. Bəşər tarixində ortaya çıxan bütün dinlər təmizliyə çox önəm vermişlər. Dinlərdə təmizlik deyərkən əsasən 2 şey - zahiri və batini təmizlik nəzərdə tutulur. Bəzi dinlər batini təmizliyə daha çox fikir verərkən, bəzi dinlər hər ikisinin vacibliyini vurğulamışlar.

İslam dini həm zahiri, həm mənəvi təmizliyə diqqət etmiş və bunu ibadətlə əlaqələndirmişdir. Peyğəmbərimizə (s.a.a) gələn ilk ayələrdə də təmizlik vurğulanmışdır: "Ey (libasına) bürünüb sarınan! Qalx (qövmünü Allahın əzabı ilə) qorxut! Öz Rəbbini uca tut! Libasını təmizlə! (Nəfsini günahlardan pak et!) (Əzaba səbəb olacaq) pis şeylərdən uzaqlaş! (Müddəsir 1- 5)

Zahiri və batini təmizliyə dəyər verən İslam dini, zahiri təmizliyi bir çox ibadətlərin əsas şərtlərindən saymışdır: dəstəmaz və qüsl kimi. Həmçinin bədən, paltar, yemək, məkan və ümumi yerlərin təmizliyi barədə İslamın göstərişləri vardır.

Pis davranış, pis fikirlər və duyğular mənəvi çirkinliyi ifadə edir. İslam dini çirkinliklərdən qorunaraq mənəvi baxımdan da təmizlənməyi əmr etmişdir. "Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!" (Bəqərə - 222). Buna görə dua, ibadət, tövbə insanı mənəvi çirkinliklərdən təmizləyir.

Xristianlıqda zahiri təmizlikdən daha çox mənəvi təmizliyə üstünlük verilmişdir. Necə ki, İncildə daha çox zahiri təmizliyə üstünlük verənlərə bu cür bənzətmə verilmişdir: "Siz zahirdən gözəl görünən, amma içi cəsəd sümükləri və hər cür pisliklə dolu olan bəzədilmiş məzarlara bənzəyirsiniz.

Zahirdən insanlara gözəl görünürsüz, amma daxildə ikiüzlü və pisliklərlə dolusunuz." (Matta İncili 23/27,28) Xristianlıqda pis söz və davranışlar insani maddi şeylərdən daha çox çirkləndirir. Bu haqda İncildə: "İsa xalqını yanına çağırıb onlara: "Dinləyin və bunu bilin ki,  ağızdan girən şey insanı çirkləndirmək. İnsanı çirkləndirən ağızdan çıxandır." (Matta İncili 15/10,11)

Yəhudilikdə isə həm zahiri, həm mənəvi təmizliyə önəm verilsə də, daha çox zahiri təmizlik vurğulanır. Tövratda buyurulur: "Yuyunub təmizlənin, pislik etdiyinizi gözüm görməsin. Pislik etməkdən çəkinin. Yaxşılıq etməyi öyrənin." (Müqəddəs kitab, Yeşeya, 1/16,17) Yəhudilikdə ibadət üçün təmizlik vacibdir. İbadət edən insanlar əl və ayaqlarını yuyarkən, ibadətə rəhbərlik edən şəxslər isə bədənlərini tamamilə təmizləməklə vəzifələndirilmişlər.

Buddizm və Hinduizmdə zahiri təmizlikdən daha çox mənəvi təmizliyə üstünlük verilmişdir. Hinduizmdə insanın qəlbinin hər cür pisliklərdən təmizlənməsi əmr edilir. Bir hindu günəş doğmadan öncə oyanar, tanrını zikr edər və yuyunar. Beləliklə sabah ibadətindən əvvəl su ilə təmizlənmiş olar.

İnsanlar üçün maddi təmizliklə bərabər mənəvi təmizlikdə mühümdür. Qəlbini, ruhunu hər cür pisliklərdən təmizləmiş insan, həm də zahiri təmizliyinə də fikir verməlidir. Buna görə də bütün dinlər insanı həm batini, həm zahiri təmizliyə səsləmişdir.

• Yaxşılıq etmək - bütün dinlərin ortaq dəyərlərindən hesab olunur. Dinlər öz ardıcıllarına yaxşılıq etməyi, insanlara xidmət etməyi əmr etmişdir. Çünki, yaxşılıq etmək dindarlığın bir nişanəsidir.

İslamda yaxşılıq etmək dinin əsaslarından biri hesab olunur. “Mömin olmaqla bərabər, yaxşı işlər görən kişilər və qadınlar Cənnətə daxil olarlar.

Onlara xurma çərdəyi qədər haqsızlıq edilməz!” (Nisa – 124) Kim yaxşı bir iş görsə, xeyiri özünə, kim də bir pislik etsə, zərəri özünə olar! (Casiyə - 15).

İslam dini yardım etməyi və yaxşılığı kimsəni incitmədən, Allaha xatir etməyi əmr etmişdir. “Ey iman gətirənlər! Sədəqələrinizi, malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın.” (Bəqərə - 264)

İslam dinində yaxşılıq etmək çox yönlü bir davranışdır. Yolda qalmış birinə kömək etməkdən xəstə ziyarətinə, bir yetimin başına sığal çəkməkdən bir insana təbəssüm etməyə, ehtiyac sahibinə kömək etməkdən heyvanlara şəfqət göstərməyə qədər bir çox gözəl davranışları özümdə cəmləmişdir.

Yaxşılıq etmək yəhudiyilin də diqqət etdiyi vacib əxlaqi qanunlardandır. Yəhudilərin kitabı Tövratda hər yəhudinin imkanı daxilində yardım etməsi buyurulub. “Əlindən gəldiyi qədər ehtiyacı olanlardan yaxşılığı əsigəmə” (Müqəddəs kitab, Süleymanın sözləri 3/ 27) “Bir qardaşın yoxsullaşıb möhtac olarsa, ona kömək etməlisən.” (Levlilər 25/ 35)

Xristianlıqda yaxşılıq və yardım etmə əbədi xoşbəxtliyin yollarında biri olaraq qəbul edilir.

Ancaq edilən yaxşılıqların gizli olması tövsiyə edilir. İncildə bu haqda buyurulur: “ Birinə sədəqə verdiyiniz zaman şeypur çalaraq elan etməyin. Siz sədəqə verərkən sol əliniz sağ əlinizin nə etdiyini bilməsin. Verdiyiniz sədəqələr gizli qalsın. Gizli edilənləri görən atanız sizə mükafatlandıracaqdır.” (Matta İncili 6/2,4)

Buddizm və Hunduizm kimi Şərq dinlərində də yaxşılıq etmək əmr edilmiş və səadətə çatmağın yolu kimi qəbul edilmişdir.

Məsələn Buddizmə görə, bütün canlılara fərq qoymadan sevgi və xoş niyyətlə yaxınlaşmaq, hər canlıya mərhəmət etmək və başqalarının uğurlarına sevinmək insanı səadətə çatdıran yollardır. Buna görə də bir buddist bütün canlılarla, məxsusən insanlarla yaxşı davranmalıdır.

Konfuizmdə başqalarının çətinliklərini bölüşmək, onlara şəfqət göstərmək təməl əxlaqi qanunlardandır.

- Böyüklərə hörmət - Böyüklərə yaş və həyat təcrübələrindən dolayı hörmət edilməlidir. Qocalıq hər insanın bir gün yaşlanıb sevgiyə, şəfqətə ehtiyaclı olduğu bir dönəmdir. Buna görə bütün dinlər böyüklərə hörməti əmr etmişlər.

İslam dininə görə böyüklərə hörmət etmək əxlaqi keyfiyyətlərdən sayılır. “Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: “Uf!” belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!” (İsra - 23) “Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. (Uşağın süddən) kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq: ) “Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir!” (Loğman - 31)

Xristianların müqəddəs kitabı olan İncildə böyüklərə hörmət və ata-anaya xoş davranmaq çox mühümdür. “Rəbb yolunda ana-atanızın sözünü dinləyin. Çünki, doğru olan budur. Yaxşı həyat sürmək, uzun ömürlü olmaq üçün ana, atana hörmət edəcəksən.”

Böyüklərə hörmət etmək yəhudillikdə də çox vacibdir. Yəhudiliyin müqəddəs kitabı Tövratda buyurulur: “ Ağ saçlı insanların qarşısında ayağa durub, yaşlılara hörmət edəcəksən” (Müqəddəs kitab, Levlilər 19/32)

Ata anaya hörmət etmək Həzrət Musaya verilən “10 Əmr”dən biridir Tövratda bu barədə buyurulur: “Hər kəs ata-anasına hörmət etsin.” “Tanrının buyuruğuna əsasən ana-atana hörmət et. Ömrün uzun olsun.”

Konfuizmdə böyüklərə hörmət etmək, ana-ataya yaxşı davranmaq müdrikliyin nişanələrindəndir. Buddizm və Hinduizmdə də böyüklərə hörmət etmək əxlaqdan hesab edilir.

- Başqalarına zərər verməmək - Bütün insanlar dünyaya gəldiyi vaxtdan bir çox haqlara sahib olurlar: yaşamaq, mülkiyyət, inanmaq, düşüncə, namus və.s. Bütün dinlər insanların sahib olduğu təməl haqları qorumaq üçün, onlara təcavüz edən hər cür hücumu qadağan etmişdir. İnsanların canına, malına, namusuna dair hər cür təhdid dindarlığa və gözəl əxlaqa ziddir.

İslam dini bütün canlılara şəfqət və mərhəmətlə davranmağı əmr etmiş və zülmü böyük günahlardan hesab etmişdir. İslam, yəhudilik, xristianlıq, budizm və konfuizm kimi dinlərin hamısı insanlara və digər canlılara zülm etməyi düzgün hesab etməmişlər.

Buddizmə görə bütün canlılar bir-birinə qohum sayıldığı üçün hər hansı bir canlını incitmək doğru deyldir. Bu səbəbdən bir buddistin qan tökməsi və canlılara xətər yetirməməsi çox mühümdür. Buddist mətnlərinə görə “bütün varlıqlar təhlükə qarşısında qorxarlar və həyat hamısı üçün qiymətlidir. Bu vəziyyəti qəbul edən bir insan, onları öldürməz və öldürülmələrinə də səbəbkar olmaz.”

“Bir insan özü üçün istədiyini qardaşı üçün istəmədikcə həqiqi mömin olmaz” – (İslam)

“İnsanların sənə necə davranmağını istəyirsənsə, sən də onlara o cür davran” – (Xristianlıq)

“Sənin üçün xoş olmayan şeyləri dostların üçün də etmə. Bu Tövratın əslidir.” (Yəhudilik)

“Bir şəxs dünyadakı bütün yaradılanların ona necə davranmasını istədiyi kimi davranmalıdır.” (Caynizm)

“Həyat hər kəs üçün əzizdir. Digərlərini özünlə müqayisə edərək nə onlarla mübahisə et, nə də mübahisəyə səbəbkar ol.” (Budizm)

“Özün üçün istəmədiyin şeyi başqalarına etmə.” (Konfuzim)

“Yaxşı insan digərlərinin qazancını öz qazancı, digərlərinin itkisini də öz itkisi olaraq görər.” (Taoizm)

•  Öldürməmək - Bütün dinlərin qadağan etmiş olduğu davranışların birincisi insan canına qəsd etməməkdir. Çünki, insanın sahib olduğu təməl haqlardan birincisi yaşamaq haqqıdır. Hər hansı bir insanı haqsız yerə və qəsdən öldürmək böyük bir günahdır. Bu səbəblə cinayət törətmək bütün dinlərdə böyük günah sayılıb və qadağan edilmişdir.

İslam dininə görə hər insan yaşamaq haqqına malikdir. Bu səbəbdən əgər bir səbəb olmazsa, bir insanı öldürmək bütün insanları öldürməkdir. Həmçinin, bir insanı xilas etmək, bütün insanları xilas etmək deməkdir.

Bu Qurani Kərimdə bu cür söylənmişdir: “Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur.” (Maidə - 32) Digər bir ayədə də bu cür buyurulmuşdur: “Yoxsulluqdan qorxub (Cahiliyyət dövründə olduğu kimi) övladlarınızı (xüsusilə, qız uşaqlarını) öldürməyin. Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək, həqiqətən, böyük günahdır!” (İsra – 31)

Xristianlığa görə sonsuz həyata qovuşmağın və xoşbəxtliyin şərtlərindən biri də öldürməməkdir. Şərq dinlərində də öldürmək böyük günahlardan hesab olunur.

Buddaya görə insanı nirvanaya çatdıran yollardan biri də heç bir canlını öldürməməkdir. Buddizmin müqəddəs mətnlərində bu mövzu bu cür ifadə edilir: “ Bütün insanlar cəzalandırılarkən titrəyərlər, bütün insanlar ölümdən qorxarlar, sən də onlara bənzədiyini xatırla və nə öldür, nə də öldürülməsinə səbəb ol.”

•  Oğurluq etməmək - Dinlərin ortaq əxlaqi qanunlarından biri də oğurluq etməməkdir. İslam dini oğurluq etməyi böyük günahlardan hesab etmişdir. Çünki, oğurluq həm insanların zəhmətinə qarşı bir hörmətsizlik, həm də haqqa riayət etməməkdir. Qurani Kərimdə insanların mallarına haqsız yerə əl uzatmaq bu cür qadağan edilmişdir: “Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin.” (Nisa - 29)

Oğurluq xristianlıqda da qadağan edilmişdir. İncilə görə oğurluq doğru bir davranış deyildir və qadağan edilmişdir.

Yəhudilikdə “10 Əmr”dən biri də oğurluq etməməkdir. Tövratda insanların mallarına göz dikmək, onları haqsız yerə almaq günah sayılmış və bu günahı işləyənlərə qarşı sərt cəzalar tətbiq edilmişdir. “Oğurluq etməyəcəksiniz, hiylə işlətməyəcəksiniz. Oğru oğurladığı şeyin qarşılığını mütləq ödəməlidir. Heç nəyi yoxdursa, oğurluq etdiyinə görə qul olaraq satılacaqdır.” (Müqəddəs kitab. Levlilər 19/ 11)

Hinduizm və Buddizmdə də oğurluq qadağan edilmişdir. Buddizmin 5 qanunundan biri də oğurluq etməməkdir. Bu dinlərdə oğurluq etmək insanın mənəvi yolunda bir maneədir. Nəfslərinə uyub başqalarının mallarını göz dikənlər çirklənmiş insanlar hesab edilir.

•  Zina etmək - İnsan nəslini təhdid edən, fərdlərin iffət və namus dəyərlərini yox edən zina, tarix boyunca cəmiyyətlər və dinlər tərəfindən zərərli bir davranış hesab edilmişdir. Hüquqi, əxlaqi və bəzi siyasi sistemlər zinanın qarşısını almaq üçün qanunlar və cəzalar müəyyən etmişlər.

İslam dini də zinanı əxlaqsızlıq və böyük günahlardan hesab edir. Bu səbəbdən Qurani Kərimdə zinaya səbəb ola biləcək düşüncə, söz və davranışlar qadağan edilmişdir. Belə ki, buyurulmuşdur: “Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur!” (İsra - 32)

Yəhudilikdə də zina pis və qadağan edilmiş davranışlardandır. “10 Əmr” dən biri olan “zina etməyəcəksən” (Müqəddəs kitab) əmri hər yəhudinin əməl etməsi vacib olan əsas qanunlardandır. Tövratda zinanın hər növü qadağan edilmiş və bu işi görənlər sərt şəkildə cəzalandırılmışlar. (Müqəddəs kitab, Levlilər 18/1, 30)

Xristianlıqda da zina böyük günahlardandır. Xristianlıqda zina etmək haram olduğu kimi, hər hansı bir qadına pis nəzərlə baxmaq da zina etmək sayılır. İncilə görə birinin əxlaqsızlıq istisna olmaqla, öz yoldaşını boşaması düzgün deyildir. (Matta İncili 5/ 37, 32)

Hind dinlərində də zina qadağan edilmişdir. Ailəyə dini və sosial baxımdan dəyər verən hinduizmə görə cinsi ehtiyaclar qeyri-qanuni yollarla təmin edilməməli və zinadan uzaq durulmalıdır. Buddizmdə isə zina etməmək, əməl edilməsi lazım olan 5 qanundan biridir. Bir buddist nəfsini və bədənini kontrol etməli, hər növ şəhvətdən və pis hisslərdən özünü qorumalıdır. Çünki cinsi ehtiyacları təmin etmək hər növ çirkinliyin qaynağıdır.

- Yalançı şahidlik - Doğruluğa əmr edən dinlər yalan danışmağı və yalançı şahidliyi qadağan etmişlər. Yalan danışmaq insanlar arasından güvən və etibar duyğusunu zədələyir. Yalançı şahidlik isə ədalətin bərqərar olunmasının qarşısını alar və günahsız insanların nahaq yerə cəzalandırılmasına səbəb olar.

İslam dini yalançı şahidliyi qadağan etmiş və bu barədə Quranda buyurulmuşdur: “Yalan sözlərdən də çəkinin.” (Həcc - 30)

Yalançı şahidliyin qadağan edilməsi Qurani Kərimdə bu cür ifadə edilir: “Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!” (Maidə - 8)

Yalançı şahidlik etməmək yəhudiyin “10 Əmr”indən biridir. “Qonşuna qarşı yalandan şahidlik etməyəcəksən!” “Yalandan xəbərçilik etməyəcəksiniz. Yalançı şahidlik edərək haqsız yerə pis adamın tərəfini tutmayacaqsınız!” (Müqəddəs Kitab) Rəbbinin nifrət etdiyi 6 şey, iyrəndiyi 7 şey vardır: Qürurlu gözlər, yalançı dil, günahsız qan tökən əllər, kələkbaz qəlb, pisliyə tələsdirən ayaqlar, yalan qoxan yalançı şahid və qardaşlar arasında düşmənçilik yaradan insan.” (Tövrat. Süleymanın sözləri 6/19 - 19)

Xristianlıqda da yalançı şahidlik qadağan edilmişdir: “Yalan yerə şahidlik etməyin.” (Matta İncili 19/ 18, 19) “Düşmənlərinizi sevin, sizdən nifrət edənlərə yaxşılıq edin, sizi lənətləyənlərə yaxşılıq diləyin. Sizi təhqir edənləri dua edin... Sizə yaxşılıq edənlərə yaxşılıq etsəniz, bu sizə nə tərif qazandırar? Günahkarlar da bu cür edər.” (Luka İncili 6/27-33)

Dini dəyərlərin olmadığı bir cəmiyyət və mədəniyyət təsəvvür etmək çətindir. Bir dəstə din və mədəniyyət arasındakı bütün əlaqələri inkar ediblər, amma bu baxış düzgün deyil. Əlbəttə bu məsələ aydındır ki, mədəniyyətlərin bəzisi təkamülə yetişməkdə olan səmavi dinlərin uca hədəflərinə qarşı olduqlarına görə, dinlə uyğun olmaya bilirlər. Ona görə də din onları qəbul etmir. Amma mədəniyyətlərin çoxu, dinin proqramları ilə uyğundurlar. Ona görə də din onları təsdiqləyir. Digər tərəfdən, çox vaxt mədəniyyətlər dinlərin gətirdiyi qaydalar əsasında, dinlərin vasitəsilə yaranırlar.

Hər mədəniyyətin yaranmasında az ya çox, birbaşa ya dolayısı ilə din və əxlaqın rolu vardır. Ola bilər, bəzi mədəniyyətlərdə din faktoru daha zəif, daha fərqli ola bilər. Amma ortaya çıxan sosial gerçək budur ki, dinlə heç bir əlaqəsi olmayan mədəniyyətdən danışmaq çox çətindir.

**Mənbələr**


1. Qurani-kərim.
2. Kənzül-ümmal.
3. Qədim-əhd (Müqəddəs kitab).
4. Nəhcül-bəlağə.
5. "Tarixdəki Yüz Böyük İnsan", Michael Hart.
6. Yeni-əhd (İncilllər).


پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی